**Azərbaycan Texniki Universitetinin İdarəetmə Siyasəti Sənədi**

## 1. Giriş

1.1. Azərbaycan Texniki Universitetinin (bundan sonra - AzTU) “İdarəetmə Siyasəti” Sənədi (bundan sonra - Sənəd) şəffaflıq, dürüstlük, qərəzsizlik, rəqəmlallaşma, idarəetmə qərarlarının kollegial qəbulu, səlahiyyətlərin ötürülməsi prinsiplərinə əsaslanan və səmərəli, perspektiv inkişafı təmin edən idarəetmə sisteminin formalaşmasına zəmin yaradan sənəddir.

1.2. Sənədin hazırlanmasında "Təhsil haqqında", “Elm haqqında” Azərbaycan Respublikasının Qanunlarının, digər müvafiq qanunvericilik aktlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, “Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatları”nın (ESG), “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın, Elm və Təhsil Nazirliyinin Kollegiya Qərarlarının, təlimatlarının, əmr və sərəncamlarının, digər normativ-hüquqi aktlarının, AzTU-nun Elmi Şurasının qərarlarının, AzTU-nun rektorunun əmr və sərəncamlarının, təhsil, elm və innovasiyalar, inzibat-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ-hüquqi aktlarının, AzTU-nun Nizamnaməsininin müddəaları əsas götürülmüşdür.

1.3. Bu “Sənəd” AzTU-da idarəetmə siyasətinin həyata keçirilməsi üçün əsas prinsipləri və təlimatları özündə əks etdirir.

## 2. Əsas anlayışlar

İdarəetmə siyasəti – idarəetmə qərarlarının qəbuluna və səmərəli nəticələrin əldə edilməsinə yönəldilən prinsiplər sistemidir. Siyasət (prinsiplər sistemi) konkret tapşırıqları yerinə yetirərkən qarşıda duran məqsədlərə nail olmaq üçün struktur bölmələrin fəaliyyətini istiqamətləndirir.

## 3. Əhatə dairəsi

Bu sənəd AzTU-nun bütün struktur bölmələrinə, strukturuna daxil olmayan tabeliyindəki qurumlara şamil olunur və AzTU-nun butun əməkdaşlarını və bütün təhsil səviyyələrində təhsil alan AzTU-nun tələbələrini əhatə edir.

## 4. İdarəetmə siyasətinin məqsədi

4.1. İdarəetmə siyasətinin başlıca məqsədi AzTU-nun missiya, məqsəd və əsas strateji hədəflərinə nail olmaq üçün səmərəli və perspektiv inkişafı təmin edən idarəetmə sisteminin formalaşmasına zəmin yaratmaqdır.

4.2. AzTU-nun Elmi Şurasının 19 noyabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Texniki Universitetinin 2021-2030-cu illər üçün İnkişaf Strategiyası”na müvafiq olaraq, AzTU-nun missiya, məqsəd və əsas strateji hədəfləri aşağıdakı kimi müəyyən edilmişdir.

**Missiya:** Mühəndislik elmləri və ağıllı texnologiyaların tətbiqi sahəsində regionda lider universitet olmaq.

**Məqsəd:** AzTU-nun qarşıdakı on ildə inkişafının təməl məqsədi rəqəmsal platformada texnoloji gələcək üçün ağıllı həllər vermək və bu yönümdə mütəxəssis hazırlığını təmin etməkdir.

**Əsas strateji hədəflər:** Sənayenin inkişafını və texnoloji gələcəyi qarşılayan məsələlərin həllini öyrədən yenilikçi-təşəbbüskar akademik, məzun və tələbə heyəti ilə araşdırma və sahibkar universiteti qurmaq, hazırlanan mühəndis kadrların səviyyəsini beynəlxalq standartlar səviyyəsinə yüksəltmək.

**Şüar:** Yarat, inkişaf etdir, işlət (tətbiq et) (3D: design, development, deploy).

4.3. Əsas strateji məqsəd və hədəflərə nail olmaq üçün idarəetmə siyasəti aşağıdakı istiqamətlərdə idarəetmə qərarlarının qəbulunu və həyata keçirilməsini nəzərdə tutur:

4.3.1. qlobal səriştələrin mənimsənilməsi üçün bütün təhsil səviyyələrində müasir standartlarla keyfiyyətli tədrisi təmin etmək;

4.3.2. dünya sənaye inqilabının yaratdığı real problemləri həll etməyi öyrətmək;

4.3.3. yüksək texnologiyalı sənayeni dəstəkləyən tədqiqatları keyfiyyətli tədrisin, yenilikçiliyin və təşəbbüsün əsası kimi təşviq etmək;

4.3.4. davamlı olaraq innovasiyaları və sahibkarlığı dəstəkləyərək iqtisadiyyata və cəmiyyətə töhfə vermək;

4.3.5. 21-ci əsrin qlobal tələblərinə cavab verən Dayanıqlı və İnkluziv Universitet qurmaq.

**5. Dəyərlər**

**5.1.** AzTU-nun formalaşdırılmış, əmək kollektivi tərəfindən qəbul edilmiş və müvafiq normativ sənədlərdə təsbit edilmiş təşkilati və mənəvi dəyərləri aşağıdakılardır.

**5.1.1. Təşkilati dəyərlər**

**Liderlik və innovativlik** – idarəetmə prosesinin həyata keçirilməsində mütəmadi olaraq təşəbbüskarlıq mövqeyindən çıxış etməklə innovativ tədbirlər görmək;

**Keyfiyyətlilik və dinamiklik –** idarəetmə orqanları qarşısında qoyulan vəzifələri yüksək keyfiyyətlə həyata keçirmək, AzTU-nun fəaliyyət istiqamətləri üzrə dünyada baş verən yeniliklərə çevik reaksiya vermək;

**Şəffaflıq və peşəkarlıq** - fəaliyyət istiqamətləri üzrə görülən işlərdə şəffaflıq nümayiş etdirmək və bütün fəaliyyət istiqamətində peşəkarlığı daim zirvədə saxlamaq;

**Qanunçuluq** – AzTU-nun vəzifə və hüquqlarının həyata keçirilməsində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərafdar çıxdığı beynəlxalq müqavilələri, Elm və Təhsil Nazirliyinin Kollegiya qərarlarını, AzTU-nun Elmi Şurasının qərarlarını, elm və təhsil nazirinin əmr və sərəncamlarını və öz Nizamnaməsini rəhbər tutmaq;

**İctimai etimad** – tərəfdaşların, həmçinin AzTU-nun əməkdaşlarının və tələbələrinin qanuni maraqlarına ziyan vurmamaq, fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilik və səlahiyyətləri daxilində həmin maraqların həyata keçirilməsini dəstəkləmək, görülən işlər barədə hesabatları ictimaiyyətə təqdim etmək və ictimai etimadı daim doğruldaraq möhkəmləndirmək;

**Səmərəli idarəetmə** - optimal təşkilati idarəetmə strukturunun formalaşdırılmasını təmin etmək, idarəetmə orqanlarını düzgün müəyyən etmək, idarəetmə funksiyalarının strukturun pillələri və halqaları üzrə səmərəli bölüşdürülməsini təmin etmək, insan resurslarının idarə edilməsində innovativ idarəetmə texnologiyalarından və mütərəqqi idarəetmə metodlarından istifadə etmək, idarəetmə qərarlarının qəbulu prosesində AzTU-nun ictimai təşkilatlarının rolunun artırılmasını təmin etmək, əməkdaşların əmək fəaliyyətinin qiymətləndirilməsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər görmək, əməkdaşların motivasiyası və sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək, əməkdaşların əmək fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər görmək, etik məcəllənin müddəalarına əməl olunmasını təmin etmək, korporativ idarəetmə standartlarının tətbiqi ilə bağlı tədbirlər görmək, layihələrin idarə edilməsi üzrə çevik və adaptiv idarəetmə mexanizminin yaradılmasını təmin etmək.

### 5.1.2. Mənəvi dəyərlər

**Qərəzsizlik -** vəzifə öhdəliklərini yerinə yetirərkən qərəzsiz olmalı və bütün əməkdaşların irqinə, milliyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, dinə münasibətinə, əqidəsinə və digər xüsusiyyətlərinə görə üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməmək və həmçinin siyasi bitərəfliyə əməl etmək;

**Vicdanlı davranış** – vəzifəsindən asılı olmayaraq daim öz hərəkətləri və ya hərəkətsizliyi ilə vicdanlılıq nümunəsi olmaq və öz vəzifə borcunu keyfiyyətli və səmərəli şəkildə yerinə yetirmək;

**Əməkdaşlıq** – AzTU-nun bütün struktur bölmələri arasında koordinasiya əlaqələrinin gücləndirilməsini təmin etmək, əməkdaşlar tərəfindən vəzifə və funksiyalarından asılı olmayaraq vahid komanda fəaliyyətini nümayiş etdirmək;

**İşgüzar ünsiyyət normalarına əməl etmək** – birbaşa və yuxarı rəhbərlərlə və ya tabeliyində olan şəxslərlə münasibətdə səmimi, nəzakətli və diqqətli olmaq;

**Dürüstlük** – fikirlərlə davranışların uyğunluğunu nümayiş etdirmək, hərəkətlərə və hərəkətsizliyə görə məsuliyyət daşımaqla etik normalara ciddi riayət etmək, vicdanlı olmaq və insanlara inam təlqin etmək;

**Humanistlik** – milli və ümumbəşəri dəyərləri, insan hüquq və azadlıqlarını, ətraf mühitə və insanlara qayğı və hörməti, tolerantlıq və dözümlülüyü prioritet kimi qəbul etmək.

**6. Araşdırma və qərar vermə**

6.1. AzTU-da idarəetmə qərarlarının həyata keçirilməsi iiə bağlı daxil olmuş müraciətlər operativ, ədalətli və qərəzsiz olaraq araşdırılmalıdır.

6.2. Aparılan araşdırmalar nəticəsində AzTU-nun idarəetmə siyasətinə zidd olan hallar aşkar olunarsa, bu halları aradan qaldıran hüquqi tədbirlər, həmçinin gələcəkdə bu cür hallarının baş verməsinin qarşısının alınması üçün zəruri qabaqlayıcı tədbirlər görüləcəkdir.

**7. Məsuliyyət**

AzTU ictimaiyyətinin bütün üzvləri idarəetmə siyasətini dəstəkləmək və təşviq etmək məsuliyyətini bölüşürlər.

**8. Maarifləndirmə**

AzTU bəyan edir ki, idarəetmə siyasəti sahəsində məlumatlandırmaq məqsədi ilə davamlı seminarlar və təlimlər təşkil edəcək.

**9.Məxfilik**

AzTU bəyən edir ki, idarəetmə siyasətinin həyata keçirilməsi ilə bağlı bütün müraciətlər və araşdırmalar qanunla icazə verilən həddə maksimum məxfi saxlanılacaqdır.

**10. Monitorinq**

AzTU İdarəetmə Siyasətinin səmərəliliyini qiymətləndirmək üçün müntəzəm monitorinq və təhlillər aparmağı öhdəsinə götürür.

**11.Yekun müddəalar**

AzTU bəyan edir ki, hazırki "Sənəd"in effektivliyini, müvafiq qanun və qaydalara uyğunluğunu təmin etmək üçün müntəzəm olaraq nəzərdən keçirəcək və davamlı təkmilləşdirmələr aparacaqdır.